Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyası İdarə Heyətinin üzvü, partiya sədrinin müşaviri Hüseyn Məlikin 60 yaşı tamam olur. Hüseyn Məliklə uzun illərdik ki, yol gəlirik, tanışlığımızdan 3 on ilə qədər vaxt ötməsinə baxmayaraq bu on illər ərzində Hüseyn bəyin emosiyası, çılğınlığı, enerjisisi, qətiyyəti və nikbinliyi dəyişmədi, bu dövr ərzində dəfələrlə həbsə düşsə də, təqib olunsa da bütün bunlar onun xarakterinə heç zaman təsir etmədi. Hüseyn bəyin mübarizəsi dönməzdir, çünki prinsiplərə və dəyərlərə söykənir. Odur ki, ona tezliklə uğrunda mübarizə apardığı dəyərlərin bərqərar olduğu Azad və Demokratik Azərbaycanda firavan yaşayış arzulayıram. Əminəm ki, bu hədəfə gedən uzun yolun çox böyük hissəsi arxada qalıb. Yubiley yaşınız mübarək olsun, əziz və dəyərli Hüseyn bəy, sizə sağlam və bərəkətli ömür arzulayıram, hər yaşın öz gözəlliyi, xoşbəxstliyinin bütün rəngləri nəsibiniz olsun!

Ən xoş arzularla,

Qubad İbadoğlu, ADR Partiyasının sədri